Azərbaycan, № 40.- S.2.

22 fevral 2024-cü il

# BP-nin regional prezidenti Qəri Counz Baş nazir Əli Əsədovu təbrik edib

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz Azərbaycan Respublikasının Baş naziri Əli Əsədova təbrik məktubu ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Məktubda deyilir: "BP şirkətinin adından Sizi Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə yenidən təyin olunmağınız münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizə möhkəm cansağlığı və Azərbaycan Respublikasının tərəqqisi naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayıram.

Bu il "Azəri-Çıraq-Günəşli"nin tərəfdaşları ilə Azərbaycan arasındakı uğurlu tərəfdaşlığın rəmzi olan "Əsrin müqaviləsi"nin 30 illiyi ilə əlamətdardır. Biz Azərbaycanla onilliklər boyu davam edən əlaqələrimizə yüksək dəyər verir, Azərbaycan Hökuməti və SOCAR ilə olan uzunmüddətli tərəfdaşlığımıza sadiq qalırıq.

Fürsətdən istifadə edərək, Sizə bu illər ərzində BP-nin operatoru olduğu layihələrə göstərdiyiniz davamlı dəstəyə görə minnətdarlığımızı bildiririk. Bu uğurlu əməkdaşlığı yüksək qiymətləndirir və uzun illər davam edəcəyinə ümid edirik".